# Qarabağ Bəyannaməsi:

# Türk dünyasının mənafeyinə xidmət edən tarixi sənəd

*İyulun 6-da Prezident İlham Əliyevin təşəbbüsü ilə Şuşada "Nəqliyyat, bağlantı və iqlim fəaliyyəti vasitəsilə dayanıqlı gələcəyin qurulması" mövzusunda Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü keçirildi. Həmin görüşdə Azərbaycan Prezidenti İlham Əliyev, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Qırğız Prezidenti Sadır Japarov, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz tərəfindən Qarabağ Bəyannaməsi imzalandı. Prezident İlham Əliyev bildirib ki, bu gün imzalayacağımız Qarabağ Bəyannaməsi, qəbul etdiyimiz qərarlar Türk dünyasının həmrəyliyini və eyni zamanda Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzunu daha da gücləndirəcəkdir.*



Qeyd edək ki, Bəyannamə mühüm strateji əhəmiyyət daşıyır və qeyd olunur ki, təşkilata üzv dövlətlər tərəfdaşlığı daha da möhkəmləndirəcək, strateji əhəmiyyətli regional layihələrin həyata keçirilməsinə gətirib çıxaracaq.

Bəyannamənin ilk müddəasında bildirilib ki, TDT-nin qeyri-rəsmi Zirvə görüşünün 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı" Şuşa şəhərində keçirilməsinin tarixi dəyəri var. Daha sonra strateji tərəfdaşlığın möhkəmləndirilməsi və dərinləşdirilməsi, TDT-nin kollektiv strategiyasının formalaşdırılması üçün siyasi, iqtisadi, nəqliyyat, müdafiə sənayesi, humanitar, təhsil və mədəniyyət sahələrində türk dövlətlərinin tam potensialından və imkanlarından istifadə edilməsinin vacibliyi bir daha vurğulanıb. Həmçinin Bəyannamədə beynəlxalq ticarət əlaqələrinin təməl daşı kimi Avropa-Türkiyə-Cənubi Qafqaz-Mərkəzi Asiya-Çini birləşdirən trans-Xəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi vasitəsilə üzvlər arasında regional əlaqəni və inteqrasiyanı gücləndirmək, nəqliyyat əməliyyatlarını, gömrük prosedurlarını optimallaşdırma və rəqəmsallaşmanı əhatə etmək üçün üzv dövlətlər arasında sıx əməkdaşlığa çağırılır. Sənəddə Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin modernləşdirilməsi, 2024-cü il iyunun 6-da imzalanmış Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsinin təşviqi istiqamətində birgə əməkdaşlıq üzrə tarixi Sazişi, Türk dövlətlərində bərpaolunan geniş enerji potensialından, Azərbaycan-Qazaxıstan-Özbəkistan enerji sistemlərinin qarşılıqlı əlaqələndirilməsi layihəsi (Yaşıl dəhliz) və digər çoxsaylı məsələlər yer alıb. Bəyannamədə Fələstinin dövlət kimi tanınmasının zəruriliyi də bildirilib. Qeyd olunub ki, TDT paytaxtı Şərqi Qüds olmaqla 1967-ci il sərhədlərinə əsaslanan, müstəqil, suveren və vahid Fələstin dövlətinin beynəlxalq səviyyədə tanınmasını dəstəkləyir.

Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri türk dünyasının birliyinə xidmət etməkdir. Bu siyasi kursun əsasını görkəmli dövlət və siyasi xadim ulu öndər Heydər Əliyev qoyub. Ümummilli Liderin müəyyən etdiyi məqsədyönlü siyasət nəticəsində Azərbaycan türk dövlətləri ilə dostluq və qardaşlıq münasibətlərini qoruyub saxlaya bildi. Hazırda isə bu strategiya yeni məcrada uğurla inkişaf edir. Ulu öndər Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyev də öz növbəsində türk dövlətləri ilə əlaqələrə xüsusi önəm verir. Təkcə, Türk Dövlətləri Təşkilatına daxil olan ölkələrə edilən intensiv səfərlər, həmçinin həmin ölkələrin dövlət başçılarının Azərbaycana tez-tez gəlməsi bunu bir daha təsdiq edir. Ümummilli lider Heydər Əliyevin Azərbaycan və Türkiyə haqqında "Bir millət, iki dövlət" fikirləri iki qardaş dövlətin bir-birilərinə olan münasibətinin daha da möhkəmlənməsinə xidmət edib. Hazırda TDT-yə daxil olan ölkələrlə əlaqələr yüksək səviyyədədir.

Günümüzün əsas vəzifələrindən biri, Türk Dövlətləri Təşkilatının dünya səhnəsində güclü bir mərkəzə çevrilməsidir. Zəngin təbii resurslar, müasir infrastruktur və Mərkəzi Asiyanı, Qafqazı Aralıq və Qara dəniz limanları ilə birləşdirən nəqliyyat dəhlizləri bizim əsas üstünlüklərimizdir. Ənənəvi dəyərlərə bağlılıq və ortaq etnik köklər xalqlarımızı birləşdirir. Türk dövlət başçılarının işğaldan azad edilmiş ərazilərə, xüsusilə Şuşaya səfərləri, türk dövlətləri arasında birliyin və qardaşlığın simvolu olaraq diqqət çəkir. Prezident İlham Əliyevin çıxışları hər zaman mühüm mesajlar və çağırışlarla zəngindir. Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşündə dövlət başçısı təşkilatın fəaliyyətinin genişləndirilməsi və beynəlxalq nüfuzunun artırılması üçün atılacaq addımları vurğulayıb. Azərbaycanın Katibliyin hesabına 2 milyon ABŞ dolları köçürdüyünü qeyd edən dövlət başçısı, təşkilatın cari büdcəsinin və strukturunun nəzərdə tutulan hədəfləri reallaşdırmaq üçün yetərli olmadığını bildirib. Zirvə görüşündə "Türk Dövlətləri Təşkilatının Katibliyinin heyətinin və büdcəsinin artırılmasına dair qərar" imzalanmışdır. Ölkələr arasında əlaqələrin inkişafında iqtisadi faktor mühüm rol oynayır. Prezident İlham Əliyev Azərbaycanın iqtisadi imkanlarına diqqət yetirərək əməkdaşlığı əlaqələrinin genişləndirilməsi üçün böyük potensial olduğunu qeyd edib. Qarşıda duran hədəflər sırasında Şərq-Qərb nəqliyyat dəhlizinin genişləndirilməsi ön sıralarda dayanır. Xəzər dənizində 50-dən çox ticarət gəmisi olan Azərbaycan, türk dövlətləri üçün mühüm tranzit xidmətləri göstərir. Bakı gəmiqayırma zavodunda 6 gəmi inşa edilir və gələn il Laçında 9-cu Beynəlxalq Hava Limanı istifadəyə veriləcək.

Enerji sahəsində də əməkdaşlıq yüksək səviyyədədir. Azərbaycanın bu ilin noyabrında COP29-a ev sahibliyi etməsi, ölkəmizin bərpaolunan enerji sahəsindəki imkanlarının təqdimatı olacaq. Türk dünyasının birliyi və həmrəyliyi işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuqda da özünü göstərir. Prezident İlham Əliyev qeyd edib ki, türk dövlət başçılarının azad edilmiş torpaqlara səfərləri qardaşlıq həmrəyliyinin göstəricisidir. Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğızıstan prezidentlərinin Şuşa və digər ərazilərə səfərləri qardaşlıq əlaqələrinin gücünü göstərir. Qardaşlığın simvolu olan məktəb və yaradıcılıq mərkəzləri tikilib və tikinti işləri davam etdirilir. Hər bir beynəlxalq tədbir, Azərbaycan reallıqlarının və Qarabağ münaqişəsinin mahiyyətinin beynəlxalq ictimaiyyətə çatdırılmasında mühüm rol oynayır. Prezident İlham Əliyev Şuşa və digər ərazilərin işğalından, xalqımızın bu torpaqlara qayıtmaq arzularından bəhs edərək, işğala son qoyulduğunu və Azərbaycanın ərazi bütövlüyünün bərpa edildiyini vurğulayıb. Füzuli, Laçın, Xocalı, Şuşa və digər ərazilərə sakinlər qayıdır və hazırda Şuşa dünyanın diqqət mərkəzindədir. Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi, Şuşa Bəyannaməsi və Qarabağ Bəyannaməsinin imzalanması mədəniyyətimizin və Türk dünyasının önəmini göstərir. Zirvə görüşündə liderlər, Şuşanın Azərbaycan xalqının cəsarətini və birliyini simvolizə etdiyini vurğulayıblar. Şuşa, türk xalqlarının qəlbində xüsusi yer tutur və birgə səylərlə Qarabağ əbədi dostluğumuzun rəmzi olacaq. Beləliklə, Şuşada 3 il sonra daha bir bəyannamə imzalandı. Bu dəfə bütün türk dövlətlərinin maraqları burada ifadə olundu. Qarabağ Bəyannaməsi və qəbul edilən qərarlar, sözsüz ki, türk dünyasına böyük töhfələr verəcək.

**Musa BAĞIRLI,**
**"Respublika".**

Respublika.- 2024.- 9 iyul, (№ 141).- S.3.